

Laura Cəbrayıllı

# ALLAHIN ƏSİR MƏLƏYİ

*Əzizim balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?*

Günahımızdan keç, necə deyim – özüm səni bağışlaya bilmirəm. Belə ana-balalıq olar? Gün göylə bir olan kimi hamı varını-yoxunu yığıb qaçır anasının üstünə. Biz də dilucu dəvətə gül olub bitirik onların böyrünə, çatdığımız yerdə də qonaq kimi qısılırıq künc-bucağa... Heç deyirsənmi, hamının balası gəldi, bəs mənim balam hanı?

Nə dirimiz diridəndir, nə də ölümüz öləndən. Ayağı üstə getməyəni çiyinləri üstə aparıb verirlər olub-qalanının, öz doğmasının qucağına. Bir yol deyirsənmi, harda öldünüz, harda itib-batdınız?

Adamı torpaq da çağırır, yurd da doğmasız darıxır axı... Böyütdüyü balasını o da oxşayır, boy-buxununa, yerişinə-duruşuna baxır, səsinə qulaq asır...

Balandan hay gəlmir, bəs çatlamırmı bağrın? Niyə çağırmırsan bizi!?

*Ağ dəvə düzdə qaldı,*
*Yükü Təbrizdə qaldı.*
*Oğlanı dərd apardı,*
*Dərmanı qızda qaldı...*

Su üzü mübarəkdir, deyirlər. Amma biz yaxınlıqdan axan Arazı heç sevmirdik. Onca acı, onca ağı qarışmışdı ki suyuna... Gözümüzü açıb kədər görmüşdük. Araz bu yerlərdə az qala hər ailəni yaralamışdı, o üzdə qardaşını, babasını, əmisini-dayısını itirənlərin gözləri hələ də yoldaydı. Onların nə çəkdiyini indi başa düşürük...

Şah babamız neçə yüz il öncə Araza bir bənd salıb – Xudafərin! Di gəl bu körpünün də taleyi tərsinə düşüb. Tale deyilsə, onda ayrılıq bu Xudafərinin bir tərəfindən niyə buz kimi elə hey asıla qalıb? Bir ucunda buz qırılan kimi o tayı

soyuyur. Üzü Təbrizə gedən yolumuz təzəcə açılmışdı ki, bizi Qarabağa aparan yolumuz yumuldu.

Uşaq vaxtı Dirili Qurbaninin məzarının başına dolanıb üzü Güneyə dönəndə üşüyürdük, indi gözümüzün Xudafərindən Quzeyə baxması üçün qapı-qapı düşməli, gəzməliyik...

Gözümüzün görəcəyi onsuz da bir vaxt gördüyü deyil. Bizim Qorxmaz Bayramovu, Xurşudu... əcəl aldı, yer gizlədi. Hərəmizin ürəyi boyda olan Vətəndən amma bir tük də əskilməyib – orda Xurşud dayı yenə şipşirin nəfəsi ilə qara zurnanı dindirir, suların ən durusu yenə Çinardan axır, Qurban Təpə təzə təbiət qurbanlarını başına yığır. Ziyarətin buz papağı hələ də ərimir, Araz dəlilyin yerə qoymur, Hacı Qaraman ocağı əl tutmaqdan yorulmur...

Ürəyin torpağını işğal eləməyə hansı düşmənin gücü yetər?

Ziyarət dağı, Ağoğlan, Qurban təpəsi sanki bu diyarın təbii istehkamları idi. Bu istehkamların arasında, dağların ətəyində yerləşən balaca, səfalı şəhərimizə gedən yolu dağlar, yüksəkliklər göstərirdi və bu qəribə yol nişanlarını uşaqdan-böyüyə hamı əzbər bilirdi. Gələn qonağa yolu belə tanıdardıq:  Qartalın ətəyindən dolanıb düşərsən... Ona görə belə deyərdik ki, yolun üstündəki dağın başında qanadları açıq, nəhəng qartal abidəsi vardı. Ha tərəfdən baxsan, o qartal görünərdi...

İndi hamı evdən çıxanda qapısını bir-neçə yerdən qıfıllayır. Amma bu yerlərin adamları evdə olmayanda qapının arxasına bir çöp keçirərdilər, vəssalam. Kimin qapısında çöp görürdüksə, bilirdik ki, evdə yoxdular. Qapılar kilidsiz, pəncərələr həmişə taybatay açıq olardı, di gəl kiminsə evinə oğru girdiyini heç eşitmədim. Hər tərəf yaşıllıq idi, yenə heç kimin ağlına gəlmirdi ki, etdiyi hansısa günahı bu qol-budaqlı ağaclar gizləyə bilər...

Cəbrayıl – Allahın əsir mələyi, Azərbaycanın işğal ərazisi, Xudafərinin bu tayı... O vaxt peyğəmbərimizə vəhy gəlib ki, cənnət anaların ayaqları altındadır. Səndən ayrılalı, iki dünyanın ikisində də ayağının altını axtarırıq... Hələ tapdım deyən tapılmır – eşidirsənmi?!

avqust – 2002

**P.S. Yolumuz yumulmuşdu, açıldı axır.**
**Ocağımız sönmüşdü, alışdı axır...**
**Mələyimiz əsir idi, qurtuldu axır!..**

oktyabr - 2020

